# İbtidai siniflərdə orfoqrafiya və orfoepiyanın əlaqəli tədrisi yolları

**Səma Faiq qızı Süleymanzadə**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** rena.suleymanova.2015.@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. F.A. Səfərəliyeva,
p.ü.f.d., dos. P.Ş. Paşayeva

**Açar sözlər:** orfoqrafiya, təlim, orfoepiya, ibtidai sinif, qaydalar, dil, şagird
**Ключевые слова:** орфография, обучение, орфоэпия, начальная класса, правилы, язык, ученик
**Key words:** spelling, teaching, orthoepy, primary grade, rules, language, student

İnsanın düzgün ünsiyyət bacarığının əsasında onun məktəb təlimi dövründə qazandığı oxu-yazı, dinləmə-anlama bacarıqlarına hansı dərəcədə yiyələnməsi durur. Orfoqrafik və orfoepik bacarıqlar məktəb təlimi dövründə ibtidai siniflərdən başlanır. İbtidai sinifdə Azərbaycan dili təliminin qarşısında duran ən vacib məsələlərdən biri fonetikanın tədrisi prosesində şagirdlərə orfoqrafik və orfoepik bacarıqlar aşılamaqdır.

Fonetikanın tədrisi sözün səs və hərf tərkibinin öyrədilməsi, səslərin hərflərlə ifadəsinin qrafik və orfoqrafik qaydaları şagirdlərdə aydın təsəvvür, konkret bilik və bacarıqlar, vərdişlər yaradır. Fonetikanın əsasını təşkil edən dilimizin səs tərkibinin öyrədilməsi bir sıra vacib orfoqrafik qaydaların mənimsədilməsi üçün əlverişli imkanlar yaradır. Səs və hərf anlayışları, bunlar arasında fərqin öyrədilməsi orfoqrafik qaydalarla yanaşı, orfoepik vərdişlərin inkişafına da kömək edir. Sait və samitlərin tədrisi bir sıra orfoqrafik və orfoepik qaydaların, məsələn, qoşasaitli və qoşasamitli, yanaşı saitli və yanaşı samitli, sonu cingiltili samitlərlə bitən və s. sözlərin yazılışı və tələffüzü qaydalarının öyrədilməsi üçün geniş imkanlar yaradır. Bu da fonetikanın orfoqrafiya və orfoepiya ilə əlaqəli tədrisini təmin edir.

Fonetikanın orfoqrafiya, orfoepiya ilə əlaqəli tədrisində əsas məsələlərdən biri də odur ki, bütün orfoqrafik qaydalar fonetik biliklərin zəminində praktik yolla öyrədilməlidir. Bu baxımdan elə çalışmalar, rəngarəng iş növlərindən istifadə olunmalıdır ki, həmin qaydaları bir çox hallarda terminsiz şagirdlər başa düşə bilsinlər və həmin qaydaları yazı işlərinə tətbiq edə bilsinlər. Unutmaq olmaz ki, orfoqrafik və orfoepik qaydalar kifayət qədər çoxdur. Müəllim bu qaydalardan hansını hansı məzmunda və hansı sinifdə öyrədəcəyini əvvəlcədən müəyyən etməlidir.

I sinifdə savad təlimi dövründə şagirdlərə səs, hərf anlayışı təqdim olunan gündən onların tələffüzü və yazılışı üzərində ciddi iş aparılır. Əlifba təlimi ilə bərabər şagirdlərə praktik şəkildə orfoepik və orfoqrafik biliklər aşılanır.

II sinifdə "Səs, hərf. Sait və samit səslər"; "Sözün sətirdən-sətrə keçirilməsi"; "Sözlərin deyilişi və yazılışı"; "Samitlərin deyilişi və yazılışı"; "K samitinin tələffüzü"; "Mürəkkəb sözlərin yazılışı"; "Yazı və tələffüz" və s. kimi mövzular orfoqrafiya və orfoepiyanın tədrisinə xidmət edir. Bu prosesin əlaqəli tədrisinə müəllim ciddi nəzarət etməlidir.

III sinifdə "Qoşasaitli sözlər"; "Qoşasamitli sözlər"; "Söz sonunda bəzi samitlərin tələffüzü"; "Mürəkkəb sözlərin yazılışı"; "Xüsusi isimlərin böyük hərflərlə yazılışı"; "Sadə, düzəltmə və mürəkkəb isimlər" və s. mövzular orfoqrafiya və orfoepyanın tədrisinə xidmət edir.

Fonetikanın tədrisi zamanı saitlərin, samitlərin tədrisi də orfoqrafiya baxımından çox əhə-

miyyətlidir. Burada müəllim həmin saitlərin fərqini öyrətməklə yanaşı, onu bilməyin yazı üçün praktik əhəmiyyətini də şagirdlərə başa salmalıdır. Belə ki, sözlərə bitişən şəkilçilərin düzgün yazılışı sözün son hecalarındakı saitin qalın və incəliyindən asılı olur. Şəkilçilərin yazılışına dair qaydalar müxtəlif çalışmalar yolu ilə öyrədilməlidir.

Çalışmalar elə qurulmalıdır ki, şagirdlər həm qalın və incə saitləri fərqləndirməyi öyrənsinlər həm də iki və dörd cür yazılan şəkilçilərin düzgün yazılışı barədə müəyyən praktik bilik əldə etsinlər. Sözlərin tərkibindəki saitlərin qalın və incəliyini müəyyənləşdirmək məqsədi ilə aparılan çalışmalar zamanı sözləri kök və şəkilçilərə ayırıb oradakı şəkilçilərin kökün son hecasındakı saitə uyğunluğunu göstərməyi tələb etmək olar. Yaxud şagirdlərə sözlər verib onların sonuna şəkilçilər artırmaq və həmin şəkilçilərin qalın incə saitli olmasını müəyyənləşdirmək üzrə iş aparmaq olar. III sinifdə samitlərin tədrisini orfoqrafiya və orfoepiya ilə əlaqələndirmək üçün daha böyük imkanlar vardır. Çünki söz daxilində samitlərin yazılışı ilə deyilişi arasında fərqli cəhətlər daha çoxdur. Burada da bu əlaqə elə təşkil edilmişdir ki, həm samit səslər onların saitlərdən fərqi, samitlərin fonetik mövqeyi və əhəmiyyəti öyrədilsin, həm də söz tərkibində samitlərin düzgün yazılışı və tələffüzü qaydaları ilə şagirdlər tanış olsunlar.

Fonetikanın tədrisində ahəng qanununun öyrədilməsi mühüm yer tutur. Ahəng qanunu sözün tərkibində eynicinsli saitlərin bir-birini izləməsi ilə səciyyələnir. Ahəng qanununun tədrisi də orfoqrafiya və orfoepiya qaydaları ilə əlaqələndirilir. Ahəng qanununun tədrisi prosesində əsasən aşağıdakı məsələlərə daha çox diqqət yetirilir. Şagird:

1. Qalın və incə saitləri bir-birindən asanlıqla fərqləndirir.
2. Söz daxilində həmin saitlərin bir-birini necə izlənməsini araşdırır.
3. Hamısı qalın, yaxud hamısı incə saitli sözləri tez tapıb müəyyənləşdirir.
4. Hamısı dodaqlanmayan, yaxud hamısı dodaqlanan saitli sözləri müəyyən etməyi bacarır.
5. Tərkibində həm qalın, həm də incə saitlər olan sözləri müəyyən edir.

Nitq hissələrinin tədrisi prosesində aparılan orfoqrafik işləri şagirdlərin morfologiyadan əldə etdikləri bilikləri və orfoqrafik vərdişlərini də inkişaf etdirir. “İsim” bəhsinin tədrisi prosesində xüsusi və ümumi isimlər, mürəkkəb isimlər, mürəkkəb xüsusi isimlərin öyrədilməsi orfoqrafiya ilə əlaqələndirilməlidir. “Sifət” mövzusu ilə əlaqədar mürəkkəb sifətlər, sifətin dərəcələri, “Feil” üzrə - mürəkkəb feillər, məsdərin hallanması ilə bağlı orfoqrafik işlərin aparılması, morfologiya və orfoqrafiyanın əlaqələndirilməsi labüddür. Burada xüsusi isimlərin ümumi isimlərə çevrilməsi, eyni zamanda ümumi isimlərində xüsusi isimlərə çevrilməsinə diqqət etmək lazımdır. Məsələn: Azərbaycan-azərbaycanlı, Bakı-bakılı və s.

Bununla əlaqədar olaraq, həmin isimlərin bir halda böyük, bir halda kiçik hərflərlə yazılmasının səbəbini şagirdlərə izah etməklə, verilmiş bilikləri möhkəmləndirmək üçün müntəzəm iş aparılmalıdır. Adətən xüsusi və ümumi isimləri fərqləndirə bilmək şagirdlərin zəruri biliklərə yiyələndiyini göstərir. İbtidai siniflərdə morfologiyanın tədrisində hər bir mövzusunun orfoepiya və orfoqrafiya ilə əlaqələndirməsi qayğısına qalmalıdır. Çünki bu mövzuların xüsusiyyətlərinin öyrədilməsi onların tələffüsü və yazılışı ilə sıx əlaqədardır. Morfologiyanın tədrisində də fonetik biliklər yada salınmalı, sözlərin səs, hərf tərkibini göstərmək, orfoepik tələffüsü müəyyənləşdirmək şagirdlərdən tələb olunmalıdır.

Bundan başqa bəzi sözlərin yazılışının tələffüzdən fərqləndiyi də şagirdlərə çatdırılmalıdır. Onlar bilməlidirlər ki, dəstə, doqquz, işləyir, səndən, şair kimi yazılan sözlər dəsdə, dokquz, işliyir, sənnən və şayir şəklində tələffüz olunmalıdır. Bu izahatdan sonra şagirdlərdən bir neçəsi düzüm lövhəsində kəsmə əlifba ilə, qalanları isə öz yerlərində yazılış və tələffüz formasına görə həmin sözləri qarşı-qarşıya yazırlar. Məsdər mövzusunun tədrisi prosesində də orfoqrafik-orfoepik işlərə geniş yer verilir. Feilin məsdər forması öyrədilərkən istifadə olunan

çalışmalarda orfoepiya üzrə iş aparmaq imkanları çoxdur.

Məsələn, “oxu..istədim”, “düzəlt..lazımdır”, “tut..olmaz”, “əl vur..olmaz”, “çim..olmaz” birləşmələrini tamamlayıb yazdıqdan sonra düzgün tələffüzlə oxuması tələb olunur. Şagirdlər səhvə yol verdikdə izah olunur ki, oxumaq, tutmaq, vurmaq məsdərlərindəki k samiti y kimi tələffüz olunur. Şagirdlərin nəzərinə çatdırılır ki, ümumiyyətlə, sonu q və k ilə bitən sözlərdən sonra saitlə başlanan söz gələrsə q ğ kimi, k y kimi tələffüz olunur. Feillər indiki və qeyri-qəti gələcək zamanın III şəxsin cəmində fərqli tələffüz olunurlar. Məsələn, “görür lər-görül_lər”; “bilərlər-biləl_lər” və s. Təsdiq-inkar, feilin zaman şəkilçilərinin də yazılış və tələffüz fərqləri bu dövrdə nümunələr, müxtəlif çalışmalarla öyrədilə bilər.

İbtidai siniflərdə ədəbi tələffüz normaları öyrədilərkən, əsasən saitlərin tələffüzü, samitlərin tələffüzü və ayrı-ayrı qrammatik formaların tələffüzü üzərində dayanmaq mümkündür. Rəngarəng orfoepik qaydalar içərisindən şagirdlərin gücünə, bilik və yaş xüsusiyyətlərinə müvafiq olanları seçmək lazımdır. Müəllim şagirdlərdə orfoqrafik və orfoepik qaydaları düzgün mənimsətmək üçün lazımı bilik, bacarıqlara sahib olmalı, Azərbaycan dilinin zəngin quruluşunu, orfoqrafik və orfoepik prinsipləri dərindən bilməli, sinifdə praktiki çalışmalardan, rəngarəng metodikadan istifadə etməlidir.

**Məqalənin aktuallığı.** İbtidai siniflərdə “Azərbaycan dili” fənninin tədrisi zamanı qarşıya çıxan əsas məsələlərdən biri də fonetikanın öyrədilməsi prosesində şagirdlərə orfoqrafik və orfoepik bacarıqlar aşılamaqdan ibarətdir. Məqalə də məhz bu kimi vacib mövzuya həsr olunduğundan onu aktual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə ibtidai sinifdə Azərbaycan dilinin təlimi zamanı fonetikanın tədrisi prosesində şagirdlərə orfoqrafik və orfoepik bacarıqlar aşılanmasının zəruriliyi bir daha vurğulanmaqla, onlarla əlaqəli əsas məsələlərə toxunulur, müxtəlif mövzuların öyrədilməsi zamanı diqqət yetirilməsi vacib sayılan bəzi istiqamətlərin şərhi verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003.
2. Seyidov Y. Azərbaycan dilinin qrammatikası (morfologiya). Bakı, 2000.
3. Ümum təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları). Kurikulum, 2010, № 3

**С.Ф. Сулейманзаде**

## Связанные способы обучения орфографии и орфоэпии в начальных классах

## Резюме

Одной из основных проблем, возникающих при преподавании предмета «Азербайджанский язык» в начальной школе, является изучить учащимся орфографических и орфоэпических навыков в процессе обучения фонетике. Также обучение фонетической структуре данного языка создает благоприятные условия для усвоения ряда важных правил орфографии.

В статье подчеркивается необходимость изучения учащимся орфографические и орфоэпические навыки в процессе обучения фонетике в начальных классах.

**S.F. Suleymanzade**

## Related ways to teach spelling and spelling in starter classes

## Summary

One of the main problems that arise when teaching the subject "Azerbaijani language" in primary school is to study the spelling and orthoepic skills in the process of teaching phonetics. Also, teaching the phonetic structure of a given language creates favorable conditions for mastering a number of important spelling rules.

The article emphasizes the need for students to study spelling and orthoepic skills in the process of teaching phonetics in primary grades.

**Redaksiyaya daxil olub:** 03.11.2020